Ədalət.-2017.-7 noyabr.-S.6.

# SÖZÜN İŞIĞINDA

**Ötən şənbə günü sözün işığına yığışmışdıq. O gün Cəlilabadda əsl poeziya bayramı idi. O gün Cəlilabaddakı H.Əliyev adına Yaradıcılıq Mərkəzinin qapıları qonaqların üzünə taybatay açılmışdı... Əlamətdar tarixi bir gün qeyd olunur, yaddaşa yazılırdı. Respublikamızda sayılıb-seçilən, həmişə yüksək dəyərlə adları çəkilən cənub bölgəsinin tanınmış yazarlarından olan şair-publisist, AYB-nin və AJB-nin üzvü. "Sözün işığı" jurnalının təsisçisi və baş redaktoru Ədalət Salmanın 60-illik yubileyi və "İlahi, sən bizi sözə bağışla" adlı yeni şeirlər kitabının təqdimatı idi... Foyedə onun yaradıcılığından bəhs edən sərgi də təşkil olunmuşdu. Sərgidə kitablarla yanaşı, Azərbaycan Jurnalistlər Birliyinin Ədalət müəllimə yubiley münasibətilə verdiyi Diplom da, ayrı-ayrı təşkilatlar tərəfindən təqdim olunun Fəxri fərmanlar da, yubilyarı təbrik edən "Ədəbiyyat", "Ədalət", "Təhsil problemləri", "Yurd sevgisi", "Region-press" və başqa qəzetlər də qoyulmuşdu.**




Dəvətli olduğumuzdan Biləsuvardan tələm-tələsik çıxmışdıq, qələm dostlarımızla o mübarək gündə bir arada olmaq, qələm adamları ilə birgə böyük söz ustadına öz təbrikimizi çatdırmaq şərəfinə nail olmaqdan ötəri... Amma deyim ki, bir yerə gecikmək nə qədər yaxşı hal deyilsə, o tələskənliyin özündə də bəzən bir şirinlik duyğuları insanı başqa aləmə aparır...

Budur, Heydər Əliyev adına Yaradıcılıq Mərkəzinin önündəyik! Binanın yerlıəşdiyi küçənin sağında, solunda avtomobil çoxluğundan da bilinir ki, uzaqdan da xeyli qonaqlar var. Mərkəzin binasına daxil oluruq, bir neçə dəqiqə gecikdiyimizdən bələdçilər içəridə tədbir keçirilən Mərkəzi Kitabxananın geniş zalını bizə göstərirlər. Üzü nurlu bir gənc bizi təbəssümlə qarşılayıb: "Biləsuvardan gəlmisiniz, buyurun 2-ci sırada yerimiz var" deyə, ehtiram göstərir. Sonradan bilirik, bu yüksək ədəb, əxlaq sahibi Mərkəzi kitabxananın rəhbəri-ev sahibi Elçin Hüseynovdur.

Tədbiri idarə edən cənub bölgəsinin dəyərli yaradıcı ziyalılarından olan filologiya üzrə fəlsəfə doktoru Bilal Alarlıdır... Hər kəsin fikri, diqqəti Bilal müəllimdədir, zal dolu olsa da ümumi bir sakitlik hökm sürür. Ayaq səslərimizlə sükutu pozub, keçib yer alırıq göstərilən yerlərdə. Zala göz gəzdirdikcə ürəyin dağa dönür, bir vaxtlar adlarını qiyabi eşitdiyin, virtual tanıdığın canlı söz abidələri məclisin başında əyləşib, sağında, solunda sakit görünən sadə şeir, söz adamları sən demə, bir az sonra Ədalət müəllimin 60 illik həyat yolunu, bulaq tək qaynar yaradıcılığını poetik dillə ifadə edəcəklər.

Yubiley tədbiri olduqca maraqlı keçir. Tədbirə Cənub bölgəsinin tanınmış qələm adamları dəvət almışdılar. AYB-nin Lənkəran bölməsinin katibi Agamir Cavad və Vilayət Məmmədli, Masallıdan Qəni Bəxtəvər, Biləsuvardan Surxay Şahbazov və Samir Qurbanov, Yardımlıdan Səfail Aqiloğlu və digərlərinin qatıldığı yubiley tədbirində həmçinin ADPU Cəlilabad filialının müəllim və tələbələri, Cəlilabad rayon Ağsaqqallar Şurasının sədri Əliheydər Əsədov, OMBUDSMAN-nın nümayəndəsi Ziya İsmayılov, Cəlilabad MKS-nin işçiləri iştirak edirdilər.



Dinlədikcə qəlb ovsunlayan çıxışlar insanı valeh edir, Ədalət Salmanın Azərbaycan ədəbiyyatına, poeziyamıza verdiyi töhfələr, cənub bölgəsində ədəbi mühütün formalaşmasında xidmətləri, gənc yazarlarımıza mənəvi dəstəyi, örnək olası şəxsi keyfiyyətləri sadalanır saatlarla davam edən yubiley mərasimində.

Azərbaycan Yazıçılar Birliyinin üzvlərindən Qəni Bəxtəvər, Ağamir Cavad, Əlizadə Nuri, Vəliyulla Novruz, Mirkamil Mirxəliloğlu, Əlirza Həsrət, Meyxoş Abdullah, Əfrahim Abbas, Böyüş Yaquboğlu, OMBUDSMAN-nın nümayəndəsi Ziya İsmayılov, "Region-press" qəzetinin baş redaktoru Surxay Şahbazov, Rayon mədəniyyət şöbəsi həmkarlar təşkilatının sədri Mirşamil Mürsəlov, ADPU Cəlilabad filialının baş müəllimi Mahmudağa Qasımov, Əməkdar Mədəniyyət işçisi Cahangir Muradov, Şatırlı kənd orta məktəbinin tarix müəllimi Elşad Əmənov, "Yurd sevgisi" qəzetinin xüsusi müxbiri Əlizadə Həqiqi və başqaları çıxış edərək şair-publisist Ədalət Salmanın ədəbi yaradıcılığına, onun şəxsiyyətinə olan sayğı və ehtiramlarını bir daha dilə gətirirlər. Cəlilabad rayon Ağsaqqallar Şurasının sədri Əliheydər Əsədov yubilyar haqqında ürək sözlərini deyəndən sonra ona Fəxri fərman təqdim edir.

Dərin təəssürat hissləri doğuran yubiley mərasimi iştirakçıların qəlbində xoş ovqat yaratdı, unudulmaz duyğularla yadda qaldı.

Tədbirin sonunda şair-publisist Ədalət Salman onun naşirlik fəaliyyətindən və ədəbi yaradıcılığından söhbət açan bütün qələm dostlarına və qonaqlara öz təşəkkürünü bildirdi.

**...Bəli, ötən şənbə günü sözün işığına yığışmışdıq. O gün Cəlilabadda əsl poeziya bayramı idi.**

**Samir Qurbanov**